Güllü Məmmədova [1]

MÜASİR İNGİLİS DİLİNDƏ KLEFT CÜMLƏLƏR VƏ ONLARIN NÖVLƏRİ

Diskursda iştirak edən elementlərdən hansınısa daha emfatik etmək, dinləyicinin diqqətinə daha yaxşı çatdırmaq üçün qrammatikada müxtəlif üsullardan istifadə olunur. Məsələn: inversiya vasitəsilə, qüvvətləndirici ədatlar, əmr cümlələrində əvəzlik və ya köməkçi feildən istifadə etməklə və s. Bu üsullardan biri də kleft cümlələrin vasitəsilə emfatikliyə nail olmaqdır. Digər dilçilik konsepsiyaları kimi, kleft cümlələr də dilçilikdə vaxtaşırı yenidən işlənmiş, müxtəlif nöqteyi-nəzərdən, məsələn: sintaktik, praqmatik və semantik cəhətdən tədqiq olunmuşdur.

Kleft cümlələri ona görə müvafiq və maraqlı mövzu hesab edib tədqiq etməyə qərar verdik ki, bu mövzu dilçilikdə nisbətən az işlənmiş mövzudur. Kleft cümlələr terminini ilk dəfə N. Xomskinin əsərlərində rast gəlinir, amma əsasən son dövr dilçiləri bu mövzuya diqqət yetirməyə başlamışlar. Bunlardan O. Yesperson, A.Kalud , K.Lambrext və digərlərini misal göstərə bilərik.

İngilis dili kleft tipli cümlələrlə çox zəngindir. Kleft cümlə Azərbaycan dilinə bəzən "bölünmüş cümlə", bəzən "yarıq cümlə" kimi tərcümə olunur. İngilis dilində kleft cümlə sadə cümlənin bir hissəsini və ya hər hansı bir sözü vurğulamaq üçün cümləni mürəkkəb formaya çevirərək yenidən ifadə etməkdir. Bu tip cümlə quruluşu əsasən *it* əvəzliyi ilə başlayır və cümlə təyin budaq cümləsi ilə davam edir. Belə cümlələr "yalançı mürəkkəb cümlələr" də adlandırıla bilər. Belə mürəkkəb cümlələrdə, cümlələrin biri məhz mənanı qüvvətləndirmək üçün istifadə olunur. Misallara nəzər salaq:

Tom had brought the book.
Those girls had cooked the dinner.

Verilən nümunələrdə sadə cümlələr işlənmişdir. Amma birinci cümlədəki *Tom* və ikinci cümlədəki *those girls* sözlərini daha emfatik etmək, onları oxucunun diqqətinə daha yaxşı çatdırmaq üçün transformasiya vasitəsilə təyin budaq cümləli mürəkkəb cümlələr alınır. Nəticədə isə aşağıdakı kimi cümlələr alınır ki, bunlara da kleft cümlələr deyilir. Adətən belə cümlələr formal *it* əvəzliyi ilə başlayır.

It was Tom who had brought the book.
It was those girls who had cooked the dinner.

İngilis dili qrammatikasında kleft cümlələr o konstruksiyalara deyilir ki, cümlədə hansısa element öz normal vəziyyətindən çıxarılır, ayrıca bir cümlə şəklində verilir ki, bu da cümlənin daha emosional ifadə olunmasına şərait yaradır. İngilis dilində kleft cümlələr *a cleft construction, a cleft sentence* və ya *a cleft clause* terminləri adı altında tədqiq olunur.

Kleft cümlələr müxtəlif mətn tiplərində, yəni həm yazılı, həm də şifahi nitqdə işlədilir. Son tədqiqatlar göstərir ki, it-kleftlər əsasən yazıda işlədilir, onlar şifahi nitq üçün xarakterik deyil.

XX əsrdə dilçi alim O. Yesperson bu cümlə modellərinə diqqət yetirmişdir. O. Yesperson *it* kleft cümlələrini özünün 1965-ci ildə yazdığı "Modern English Grammar" kitabında təsvir etmişdir. Amma bu kitabda o, bu cümlələri kleft cümlələr adlandırmamışdır. Onun sonrakı 1984-cü ildə yazdığı "Analytic Syntax" kitabında bu termini işlətmişdir. O. Yespersona görə belə cümlələr fərqli sintaktik konstruksiya deyil, sadə cümlə modellərinin dəyişilmiş formasıdır [10, s. 118].

Kleft cümlələrdən bəhs edərkən dörd suala cavab tapmağa çalışmışıq. Bunlar aşağıdakılardan ibarətdir.

1) kleft cümlələr hansı cümlə modellərinə deyilir,
2) bu cümlənin komponentləri bir-birinə neçə bağlanır,
3) ingilis dilinin geniş tərkibində bu cümlələr hansı funksiyanı yerinə yetirir,
4) ingilis dilində bu cümlələrin işlənmə yeri

Dilçi alim A. Kalud öz əsərində müxtəlif dilçilər, o cümlədən Quirk et all, Sornikola, Lambrext, Hudleston və Pullum, Pavey və Delin və Oberlanderin fikirlərini tədqiq etmişdir. O göstərmişdir ki, bir çox dilçilər kleft terminini işlətmiş, amma onun dəqiq tərifini verməmişlər [10, s. 59].

İngilis dilində kleft cümlələr müxtəlif yollarla düzəldilir. Kleft cümlələr həm sintaktik, həm də diskurs əlaqəsi baxımından tabelilik əlaqəsi yaradan quruluşa malikdir. Kleft cümlələr diskurs tabeliliyini nümayiş etdirir, çünki kleft cümlələr diskursda iştirak edən elementlərdən asılı olur. Həm *What you need now is a new skirt* həm də *All you need is a little money* cümlələri onları əhatə edən cümlə materialları olmadan başa düşülə bilməz.

Əvvəldə də qeyd etdiyimiz kimi, kleft cümlələr, cümlədə hər hansı üzvün qarşılaşdırılması və ya emfatika məqsədilə işlədilir. Məsələn:

Mr. Brown got to a hotel late in the evening after a long journey.
Göstərilən sadə cümləni kleft cümlələr şəklində aşağıdakı kimi işlətmək olar.
It was Mr.Brown that (who) got to a hotel late in the evening after a long journey.
It was the hotel that Mr.Brown got to late in the evening after a long journey.
When Mr. Brown got to a hotel was late in the evening.
It was late in the evening that Mr.Brown got to a hotel after a long journey.
It was after a long journey that Mr.Brown got to a hotel late in the evening.

[1] Azərbaycan Dillər Universiteti. gullu.mammad@mail.ru

Dilçilər arasında mübahisə yaradan məsələlərdən biri də budur ki, kleft cümlələri işlətməklə yeni informasiya verilir, yoxsa verilmiş informasiya daha qabarıq vurğulanır, Ümumiyyətlə kleft cümlələrin növləri bir-birindən necə fərqlənir.

Biz verilən hər hansı cümlənin müxtəlif üzvlərini vurğulayaraq müxtəlif növ kleft cümlələr işlədə bilərik. Məsələn, belə bir cümləyə diqqət yetirək:

Ann wrote a letter to John yesterday.

It was *Ann* that (who) wrote the letter to John yesterday.

All the thing that Ann wrote to John is the letter.

What Ann wrote to John was a letter.

It was *John* who (that) Ann wrote the letter to yesterday.

It was *yesterday* that Ann wrote the letter to John.

It was what Ann wrote the letter to John.

Kleft cümlələrin quruluşuna nəzər salsaq görərik ki, it əvəzliyi ilə başlayan kleft cümlələrdə cümlə formal it ilə başlayır, sonra bağlayıcı feil, vurğulanan elenent və daha sonra isə kleft cümlə işlənir. Qeyd etmək yerinə düşər ki, wh- kleft cümlələrdə və çevrilmiş (reversed) wh-kleftlərdə əvəzlik (it) olmur. Bu tipli cümlələrdə wh-sözün özü kleft cümləni təqdim edir.

Dilçilikdə müzakirə olunan məsələlərdən biri də kleft cümlələrdə işlənən əvəzlik –it-in status məsələsidir. Bəzi alimlər qeyd edirlər ki, bu əvəzlik əlavə edilmiş (expletive), boş və ya sıfır element hesab edilə bilər, hansı ki, praqmatik və semantik cəhətdən fəaliyyətsizdir. Bu yanaşmanı 1977-ci ilə N. Xomski, sonralar isə 2001-ci ildə Lambrext öz əsərlərində təsdiqləmişlər [10, s. 60]. Misallara nəzər salaq:

1) It seems to me that you're wrong.
2) It is snowing.
3) It was John that I saw.
4) It's not true.

Bu misalların hər birində *it* əvəzliyi semantik mənasına görə müxtəlif məqsədlər üçün işlədilir. Üçüncü cümlədə kleft cümlə yaradan *it* digər cümlələrdə işlənən *it*-dən əsaslı surətdə fərqlənir. Belə ki, birinci və ikinci cümlələrdə işlənən it formal it olduğu halda, dördüncü cümlədə verilmiş it əsas mübtəda, yəni işarə əvəzliyi kimi işlənmiş əvəzlikdir. Qeyd etmək lazımdır ki, kleft cümlələri düzəldən it əvəzliyi də formal mübtəda kimi işlədilir.

İt əvəzliyi ilə başlayan bu tipli cümlələrdən danışarkən mübtəda ilə xəbərin uzlaşmasından da danışmaq yerinə düşər, belə ki, it ilə başlayan belə kleft cümlələrdə mübtədanın tək və ya cəm olmasından asılı olmayaraq xəbər həmişə üçüncü şəxsin təkində işlədilir. Məsələn:

It was my mother who had cooked the dinner.

It was my students who had made the report much better.

Kleft cümlələrin quruluşundan bəhs edərkən meydana çıxan ikinci mübahisəli məsələ kleft cümlələrin özlərinin statusu məsələsidir. Baxmayaraq ki, çox tədqiqatçılar wh-kleft tipli cümlələri sərbəst təyin budaq cümlələri (free relative clause) hesab edirlər, yenə də dilçilər arasında bu mövzu fikir ayrılığına səbəb olmuşdur. Ənənəvi nöqteyi nəzərdən cümlənin əvvəlində işlənən wh-sözü nisbi (relative) təyin budaq cümlələrini təqdim edir və özünü nisbi təyin budaq cümlələrinin ilk tərkib hissəsi rolunda göstərir. Məsələn: *What you need is a good holiday* cümləsinə diqqət yetirək. Onlar *what you need* cümləsini sərbəst nisbi təyin budaq cünləsi (free relative clause), həm də kleft cümlə hesab edirlər.

Bu dilçilər belə hesab edirlər ki, baxmayaraq ki, belə təyin budaq cümlələrində antesedent kimi işlənən isim yoxdur, amma belə cümlələr planlaşdırılmamış, şifahi nitq üçün xarakterik olan cümlələrdir.

Digər dilçilər, o cümlədən Miller göstərir ki, hətta şifahi nitqdə işlənən elə cümlələr vardır ki, onlar təyin budaq cümlələrinin təhlilinə uyğun gəlmir.

Beləliklə görmək olur ki, həm yazılı, həm də şifahi nitqdə bir çox belə cümlələr vardır ki, təyin budaq cümlələri üçün nəzərdə tutulan qaydalara uyğun gəlmir.

A.Kalud da ingilis dilində bu tipli cümlələrin 3 növünün olduğunu qeyd edir.

it-cleft, wh-clefts və tərsinə çevrilmiş (reversed) wh-clefts. Bu cümlələrin hər birinin özünəməxsus xüsusiyyətləri olsa da, onlar arasında ümümi xüsusiyyətlər də az deyildir. Məsələn: *That is what you need, This is what I want* və *That is what I thought* tipli cümlələrin bir çox xüsusiyyətləri vardır ki, onlar digər kleft cümlələrinə də aid edilə bilər. Üstəlik bu cümlələri kleft olmayan sadə cümlələr şəklində də işlətmək olar. Məsələn: *I thought that, you need this* və *I want this* və s. kimi.

A. Kalud bu tipli cümlələri *demonstrative* – işarə bildirən kleft cümlələr adlandırmışdır [10, s. 61].

Demonstrative - işarə bildirən kleft cümlələr o cümlələrə deyilir ki, bu cümlələrin əvvəlində işarə əvəzlikləri işlənir. Məsələn:

This is my drink bottle you are using.

That was the first thing about her I saw.

İşarə bildirən kleft cümlələrin ayrıca kleft cümlələrin növü kimi hesab edilməsinin bir çox səbəbləri vardır. Onlar işarə bildirən kleft cümlələrin diskursda əhatəsində olan güclü diektik bağlara əsaslanır. Biz kleft cümlələri adətən danışıqda işlədirik.

İt ilə başlayan cümlələr kleft cümlələrin ən çox işlədilən formasıdır. İt – dən sonra işlənən informasiya dinləyici üçün vurğulanır, diqqətə çatdırılır. İt ilə başlayan cümlə digər cümlə ilə that bağlayıcısı vasitəsilə bağlanır və artıq başa düşülmüş məlumat *it* ilə başlayan cümlədə verilir.

Qeyri-formal vəziyyətlərdə *that* bağlayıcısı cümlənin tamamlığı olarsa o, düşə də bilər. Wh-kleft cümlələr çox hallarda what-la təqdim olunur, amma why, where, how və s. ilə işlənən kleft cümlələrə də rast gəlinir. wh-cümlələrdə verilən informasiya əsasən köhnə və ya başa düşülmüş, deyilmiş informasiya olur, halbuki bu cümlələri kleft cümlələr şəklində verməklə yenilənmiş informasiya diqqətə çatdırılır. Məsələn:

Why he has come back is unknown.
Where he will go with his family is a problem.
What she had seen is only their arguing together.

Kleft cümlələr bəzən cümlənin hər hansı üzvünü bağlayıcı xəbər əlavə etməklə dinləyicinin diqqətinə çatdırmaq üçün sadə cümlələrin bölünməsi prosesinin nəticəsi olaraq təsvir edilir. Məsələn:

It was here that she had intended to come and get her new things.
It was the first reference he had made to that subject and now she realized how bad off she was.
It was something that was power in itself.

Bu isə həm danışana və həm də yazana icazə verir ki, cümlənin bəzi elementlərini müxtəlif pozisiyalarda işlədərək, bu elementləri bir daha qabardaraq ifadə edilməsinə şərait yaratsın.

Kleft cümlələrin forma və informasiya vermə quruluşundakı fərqlər onların diskursda necə, yəni hansı məqsədlə və harada, hansı mətn tipində işlənməsi ilə əlaqədardır. Təzadlı məna ifadə edən it-kleft cümlələr yazılı nitqdə birmənalı olaraq informasiyanı vurğulamaq məqsədi güdür. Ümumi funksiyalardan başqa it-kleft cümlələr əvvəlki mətn ilə əlaqə yaratmaq üçün də işlədilir.

Wh-kleft cümlələr isə bir-biri ilə əlaqəsi olub ancaq fərqli olan iki funksiyalarda işlədilir. Bunlardan birincisi diskursu təşkil etmək, əvvəlki informasiyanı dinləyicinin diqqətinə çatdırmaq və başlıca kommunikasiya aktını göstərməkdir. İkincisi isə wh-kleft cümlələr həm davamlı informasiya axınını göstərmək, həm də əksinə informasiya axınının dönüş nöqtəsini yaratmaqdır.

Müasir ingilis dilində yalnız yuxarıda qeyd olunan üç kleft cümlə növləri işlənmir, bunlardan başqa müasir ingilis dilində *all-only* kleft cümlələr, *there-kleft* cümlələr, *since*-kleft cümlələr, *if-because*-kleft cümlələr və s. işlədilir [10, s. 70]. Misallara nəzər salaq:

All this boy does is swim and eat.
There's the use of definite article he wants to explain.
It's been forty years since he finished school.
Not that he is stupid. It's simply that he can't explain the use of the definite article.

Elə cümlələr də vardır ki, onlar həm işarə bildirən, həm də wh-kleft cümlələrinə bənzəyirlər. Bütün bunlar müasir ingilis dilində işarə bildirən (demonstrative) kleft cümlələrlə wh-kleft cümlələrin hər ikisinin birlikdə işləndiyi cümlələrdir ki, bu cümlələrə də ikiqat (double) kleft cümlələr deyilir. Bu tipli cümlələrin bir ortaq kleft cümləsi olur. Məsələn:

That's *what you are supposed to do* is a nest.

Bu cümləyə diqqət yetirsək görərik ki, bu cümlə *That's what you're supposed to do* cümləsi *what you're supposed to do is a nest* cümlələrindən ibarətdir. Bu cümlələrin hər ikisi ayri ayrılıqda kleft cümlələr hesab olunur. Lakin verilən bu bir cümlədə isə onların hər ikisi bir cümlədə verilmişdir və *what you're supposed to do* hər iki cümlənin ortaq kleft cümləsi hesab olunur.

Yuxarıda aparılan qeydləri nəzərə alaraq göstərə bilərik ki, kleft cümlələr müasir ingilis dilinin strukturunda müəyyən yer tutur və onun işlənmə dairəsi də kifayət qədərdir. Digər emfatik vasitələrlə yanaşı kleft cümlələr də nitqimizi daha dolğun, daha qabarıq şəkildə göstərməkdə xüsusi rol oynayır. Bütün bunlara baxmayaraq kleft cümələr hələ də mübahisəli mövzulardandır və daha geniş tədqiqata ehtiyac duyulur.

İstifadə edilmiş ədəbiyyat

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1988.
2. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 2007.
3. Müasir Azərbaycan dili. III cild, Sintaksis. Bakı, 1981.
4. N.Hajiyeva, Nağıl dialoqunda aktual üzvlənmə, Türkologiya N4, Bakı, 2015.
5. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Sintaksis . Bakı, 2000.
6. Barabash T.A. A Guide to Better Grammar, Moscow, 1975.
7. Blokh M.Y. A Course in Theoretical English Grammar, M., 1983.
8. Calude A. and Miller M. Are Clefts Contagious in Conversation, English language and Linguistics 13, 2010.
9. Calude A. Clefting and Extraposition in English ICAME (International Computer Archieve of Modern and Medieval English) Journal, 32, 2008.
10. Calude A. Demonstrative Clefts and Double Cleft Constructions in spoken English, Studia Linguistica; Wiley online library, volume 62, April 2008.
11. Calude A. Cleft Constructions in spoken English; Berlin VDM Verlag, 2009.
12. Ilysh B. History of the English language. Leningrad., 1972.
13. Ilysh B. The Structure of Modern English, Leningrad, 1971.
14. Kaushanskaya V.L., et al A Grammar of the English Language. L., 1973.
15. Khaimovich B.S., Rogovskaya B.I. A Course in English Grammar. M., 1967.
16. Cleft Sentences — What, It and All - English Reservoir
17. https://www.really-learn-english.com/cleft-sentences.html
18. https://dictionary.cambridge.org/grammar/british-grammar/cleft-sentences-it-was-in-june-we-got-married

Açar sözlər: kleft cümlə, vurğulamaq, çevirmək, müxtəlif vasitələr, konstruksiya
Key words: a cleft sentence, to emphasize, to transform, various means, a construction
Ключевые слова: расщепленное предложение, усилить, превращать, разные средства, конструкция

Cleft sentences ın modern englısh and theır types

Summary

In order to make the elements of the sentence much more emphatic, to emphasize the meaning of the sentence various means are used in grammar. One of these ways is using cleft sentences. A cleft sentence is a sentence that we transform the simple sentence into a complex one in order to emphasize a part of a simple sentence or a member of a simple sentence in modern English. There are different types of cleft sentences.

The various differences in form and information structure found among cleft constructions correlate with differences in how and where they are used in the discourse. Cleft sentences are used both in written and in oral speech.

Расчлененные предложения в английском языке и их типы

Резюме

Для того чтобы элементы предложения были намного выразительнее и чтобы подчеркнуть значение предложения, в грамматике употребляются разные средства. Один из этих способов – это употребление расчлененных предложений. Расчлененные предложения – это такие предложения, где простые предложения превращаются в сложные предложения, чтобы выразит часть простого предложения или какой-либо член предложения в современном английском языке. Различают несколько типов расчлененных предложений. Разные отличия по форме и структуре, найденные среди расчлененных конструкций, связаны с тем. где и как они употребляются в дискурсе. Расчлененные предложения употребляются как в письменной, так и в устной речи.

Rəyçi: f.f.d., dos. İ. Nuriyeva